# Güclü ordu - yenilməz dövlət deməkdir



26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılmasının 106-cı ildönümü münasibəti ilə FHN Mülki Müdafiə Qoşunlarının N saylı xilasetmə briqadasının Azərbaycan Silahlı Qüvvələr Gününə həsr olunmuş şəhid ailələri və qazilərlə görüşü keçirildi.

Tədbirdə şəhid ailələri, qazilər, hərbi hissənin komandiri, polkovnik Amil Aslanov, hərbi hissənin zabit və əsgərləri, ictimai təşkilatlar, jurnalistlər, Göyçay rayonundan gələn şəhid ailələri, Qəbələ rayon Mədəniyyət Mərkəzinin musiqi kollektivi iştirak etmişdir.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilmiş , şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Aparıcı Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi Sabitlik və İnkişaf Mərkəzinin Qəbələ rayon nümayəndəliyinin rəhbəri Təranə Alməmmədova Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranma tarixindən və ordumuzun daimi inkişafından danışmışdır.

Hərbi hissənin komandiri polkovnik Amil Alcanov tədbirdə fəal iştirak edən təşkilatçılara fəxri fərmanlar vermişdir.

Tədbir vətənpərvərlik ruhunda musiqi sədaları altında davam etmişdir.

**"Qəbələ"**

# Sağlamlıq keşikçilərinin peşə günü

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətlərini və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılmasını nəzərə alaraq hər il iyunun 17-i Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Ümummilli liderin ölkə rəhbərliyinə qayıdışından dərhal sonra onun həyata keçirməyə başladığı islahatlar tibb sahəsində də öz bəhrəsini verdi, səhiyyənin səmərəsinin yüksəldilməsi və intensivləşdirilməsi üçün baza yaradıldı, beynəlxalq əlaqələr genişləndirildi.

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunur. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən



Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsait ildən-ilə artırılır. Bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır.

Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan genişmiqyaslı islahatlar göstərir ki, milli səhiyyə sistemimiz sürətlə müasirləşir, vətəndaşlarımız dövlətin yaratdığı tibb xidmətlərindən yüksək səviyyədə yararlanır. Səhiyyə sistemində aparılan islahatlar vətəndaşların sağlamlığının etibarlı təminatına xidmət edir. Azərbaycan səhiyyəsinə göstərilən bu diqqət və qayğı içərisində tibb işçiləri peşə bayramlarını qeyd edirlər.

# Yaşıl Dünyamızı birlikdə qoruyaq




Rayon tarix-diyarşünaslıq muzeyinin təşkilatçılığı ilə Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar "Yaşıl Dünyamızı birlikdə qoruyaq" mövzusunda tədbir keçirilib. Tədbirin keçirilməsində məqsəd ekoloji balansın qorunması, sağlamlaşdırılması, yaşıllıqların salınması və mühafizəsi, cəmiyyətdə təbiətə qayğını, o cümlədən yetişməkdə olan gənc nəslin təbiətə bağlılığının təmin edilməsidir. Sonda muzeyin həyətyanı sahəsində əkilmiş ağaclara xüsusi qulluq göstərilmişdir.

# Canlı xatirə kompleksi

Şəhidlər tarixin qan yaddaşıdır. İllər bir-birini əvəz etdikcə onlar da insanların yaddaşında əbədiləşir. Vətən uğrunda canını qurban verən igidlərimiz bu günümüzün deyil, sabahkı nəslin, eləcə də, nəsillər bir-birini əvəz etdikcə yaddaşlarda yaşadılmalıdır. Bu



missyanı davam etdirmək üçün bu gün keçirilən hər bir tədbir, edilən hər bir əməl, görülən hər iş müstəsna əhəmiyyat kəsb edir. Çünki bu nəsil bizim əməllərimizin sabahkı nəslə ötürücüləridir. Xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. Bu xüsusiyyətin hər kəsin təxəyyülündə yer tapması bu günkü nəslin gördüyü işlərdən, etdiyi əməllərdən asılıdır. Şəhidləri daim yaşatmaq, həmçinin, qəhrəmanlıq tariximizi qoruyub saxlamaq deməkdir. Qələm sahiblərinin yazdığı əsərlər, xeyirxah insanların, eləcə də şəhid əzizlərinin igidlərimizin xatirəsinə həsr etdiyi xatirə kompleksləri, bulaqlar və s. şəhər və rayonlarımızda, kənd və qəsəbələrdə onların adlarına verilən küçə adları, müəssisə və təşkilatların ayrı-ayrı şəhidlərin adlarının əbədiləşdirilməsi onlara olunan böyük ehtiram və hörmət əlamətidir.

Onların həyat və fəaliyyətinin, igidliyinin kitablarda nəşr olunması, rəsmlərinin çəkilməsi, abidə və büstlərin qoyulması, onlar haqqında musiqilər bəstələnməsi



tarixi qəhramanlarımızın əbədiləşdirilməsinə əyani misaldır. Həmçinin bu işi daima sürətləndirmək, inkişaf etdirmək xalqımızın hər bir övladının vətəndaşlıq borcudur.

Qəzetimizin bir neçə nömrəsində əvvəlki ildə Daşca kəndində yaradılan "Şəhid pöhrələri" ndən söhbət açmışdıq . Daşlıca kənd sakini ixtisasca pedaqoq və hazırda təqaüdçü olan Teyfur Əsədov öz təşəbbüsü ilə "Şəhid" pöhrələrini əkmiş, hər ağac bir şəhidin adı ilə adlandırılmışdır. Yol kənarında əkilən bu ağacların becərilməsi və qorunub saxlanılması hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Teyfur müəllimin başladığı bu iş həm Daşca kəndinin vətənpərvər insanlarının, məktəbli gənclərin həm də rayonumuzun hər bir bölgəsindəki vətənpərvər insanların diqqət mərkəzində olmalı və burada əkilən "Şəhid" pöhrələrin becərilməsi - xüsusilə vaxtı-vaxtında suvarılması, kökünün yumşaldılması və həmin pöhrənin ətrafı mühafizə olunması üçün kiçik halda çəpərlənməlidir.

Bu günlərdə şəhid valideynləri, "Qəbələnin səsi" yazarlar birliyi həmin ərazidə olmuş, ağac pöhrələrini şəhidlərin adları qismində ziyarət etmişlər. Burada Daşca kənd məktəbliləri də iştirak etmişdi. Tədbrdə iştirak edənlər öz çıxışlarında bu xeyirxah təşəbbüsü bəyənmiş, həmçinin "Yaşıl dünya" naminə Həmrəylik ili çərçivəsində yaşıl dünyanı birlikdə qorumaq haqqında öz fikirlərini söyləmişlər.

Təşəbbüskar insan Teyfur müəllim bu pöhrələrin becərilməsi və qorunması işində heç kəsə arxayın olmadığını və öz təşəbbüsü ilə yaratdığı canlı xatirə kompleksini daha da gözəlləşdirmək, şəhidlərin adlarına və əməllərinə layiq ağaclar yetişdirməsi haqqında danışmışdır.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

# Ümumrayon iməciliyi



Bu günlərdə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Qəbələdə növbəti ümumrayon iməciliyi keçirilmişdir. İməcilik zamanı magistral yollar, park və xiyabanlar təmizlənmiş, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər və onların ətrafı təmizlənərək daşınmış, prospekt və küçələr xüsusi nəqliyyat vasitələri ilə yuyulmuşdur. Tədbirdə rayon icra hakimiyyətinin əməkdaşları, idarə, müəssisə, təşkilatların kollektivləri, rayon könüllüləri iştirak etmişlər.

# Yaşıllıq həyatdır

Təsadüfi deyil ki, "Barlı ağacın başına dolanarlar" fikri ilə ömür sürən babalarımız təbiətə, yaşıllığa, ağaca həyat mənbəyi kimi baxıb, ağac əkməyi, ona qulluq etməyi müqəddəs sayıblar. Ulularımız deyiblər: "Ağacı arx qırağında ək ki, yıxılanda el-obaya körpü olsun", "Ağaclı kəndi sel basmaz, "Ağacı çox olan elin məzarı az olar".



# Yaş baramanın tədarükü

Qəbələ rayonunda bu ilki mövsüm ərzində yaş barama yetişdirilməsi üçün 62 kümçü ilə müqavilə bağlanaraq, onlara 250 qutu və ya 4.75 kiloqram ipəkqurdu paylanılıb. İyunun 19-da aldığımız məlumata görə artıq bir neçə gündür ki, istehsalçılardan barama qəbuluna başlanılıb. Qəbələli kümçülər ilk günlər qəbul məntəqəsinə 1,135 ton yaş barama təhvil veriblər. Hal-hazırda barama tədarükü davam edir.

